WORLD BANK GROUP
THE WORLD BANK IBRD · IDA | IFC International Finance Corporation

**PRESS-RELİZ**

# Aşağı karbon yüklü iqtisadiyyata keçid və dayanıqlılıqla bağlı investisiyalar və siyasət islahatları Azərbaycanın iqtisadi maraqlarına uyğundur, Dünya Bankı Qrupunun Hesabatında belə deyilir

**BAKI, 29 noyabr 2023-cü il** – İqlimlə bağlı operativ tədbirlər Azərbaycana aşağı karbon yüklü iqtisadiyyata qlobal keçidlə bağlı yaranan riskləri minimuma endirməyə və Azərbaycan xalqının həyat səviyyəsini qorumağa kömək edə bilər. Dünya Bankı Qrupunun bu gün dərc olunmuş **Azərbaycan üzrə İqlim və İnkişaf Hesabatında** (CCDR) belə deyilir.

Ölkə iqtisadiyyatı ÜDM-in üçdə birini və ixracın 90%-ni təşkil edən neft-qaz sektorundan əhəmiyyətli dərəcədə asılıdır. Mövcud neft ehtiyatlarının azaldığı və daha 25 il kifayət edəcəyinin gözlənildiyi bir şəraitdə kompleks və effektiv dekarbonizasiya səyləri iqtisadiyyatı şaxələndirməyə və yaşıl hidrogen və kənd təsərrüfatı kimi yeni artım drayverlərinə rəvac verəcək.

Azərbaycan həmçinin iqlim dəyişikliyi ilə əlaqədar ciddi fiziki risklərlə üzləşir. Demək olar ki, bütün ölkə ərazisi həm quraqlığa, həm də su qıtlığına məruz qalır və ekstremal hava şəraiti səbəbindən onların tezliyinin və intensivliyinin artacağı gözlənilir. Eyni zamanda, ölkənin təbii sərvətləri torpağın deqradasiyası, səhralaşma və ifrat otarılma nəticəsində zədələnir və bu, kənd təsərrüfatına mənfi təsir göstərir. Eyni amanda, neft-qaz hasilatı da torpağın deqradasiyasına və su ehtiyatlarının çirklənməsinə təsir göstərmişdir.

*“Qlobal dekarbonizasiya səylərinin tempindən asılı olmayaraq, dekarbonizasiyaya investisiyaların sürətləndirilməsi Azərbaycanın marağındadır. Bu səylər həm də iqtisadiyyatın şaxələndirilməsini nəzərdə tutan milli məqsədlərə uyğundur”*, **deyə Dünya Bankının Cənubi Qafqaz üzrə direktoru Rolande Pryce** bildirmişdir. *“Azərbaycan üzrə İqlim və İnkişaf Hesabatında (CCDR) ölkəyə hədəflərin müəyyən edilməsindən Azərbaycan iqtisadiyyatını və ölkə əhalisini iqlim dəyişikliyinin mənfi təsirlərindən qoruya biləcək tədbirlərin həyata keçirilməsinə keçid üçün praktiki yol təqdim olunur”*.

Azərbaycan iqlim dəyişikliyi üzrə Paris Sazişini imzalasa da, hələ ki, ölkə üzrə emissiyaların xalis sıfır səviyyəsinə çatdırılması ilə bağlı üzərinə hər hansı öhdəlik götürməmişdir. Bununla belə, ölkə 2030-cu ilə qədər istixana qazı emissiyalarını 1990-cı il səviyyəsindən 35%, 2050-ci ilə qədər isə 40% azaltmaqla bağlı milli hədəflər müəyyənləşdirmişdir. Hesabatda deyilir ki, dekarbonizasiya üzrə öhdəliklərini gücləndirməsinə baxmayaraq, Azərbaycan hələ də öz milli hədəflərinə çatmaq trayektoriyasına qədəm qoymamışdır.

Milli iqtisadiyyatın strukturunu nəzərə alsaq, Azərbaycanda dekarbonizasiya ilə bağlı çağırışlar əhəmiyyətli miqyasdadır. Energetika və su təchizatı da daxil olmaqla yaşıl keçid üçün vacib olan sektorlarda dövlət müəssisələri üstünlük təşkil edir və onlar ölkənin işçi qüvvəsinin yarısına malikdirlər. Dekarbonizasiya üzrə dəqiq kursun müəyyənləşdirilməsi və həyata keçirilməsi üçün iqtisadi diversifikasiya və daha dinamik özəl sektor tələb olunur.

Hesabatda qeyd olunan dekarbonizasiya və dayanıqlılıq tədbirləri üçün qlobal iqtisadiyyatın “xalis sıfır” emissiyalara keçid alacağı gözlənilən 2060-cı ilədək təxminən 44 milyard ABŞ dolları və ya ÜDM-in təxminən 3,2%-i həcmində böyük investisiyalar tələb olunacaq. Bu xərclərin əhəmiyyətli bir hissəsi kommersiya və özəl sektorun maliyyələşdirilməsi hesabına təmin olunmalıdır.

*“Aşağı karbon emissiyalı iqtisadiyyata keçidi təmin etmək üçün Azərbaycana öz iqtisadiyyatını faydalı qazıntı yanacaqlarından uzaqlaşmaq və özəl kapitaldan və “nou-haudan” istifadə etmək əlverişli olacaq, lakin bunun üçün vaxt vacib amildir. Bu hesabatda qeyd olunan imkanlardan istifadə ölkəyə gələcək yönümlü iqtisadiyyat*

*qurmaqda və əhalini iqlim dəyişikliyindən qorumaqda kömək edəcək"*, deyə **Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) Cənubi Qafqaz üzrə regional meneceri Ivana Fernandes Duarte** bildirmişdir.

Hökumətin 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasında yer almış tədbir kimi faydalı qazıntı yanacağına tətbiq olunan subsidiyaların tədricən, lakin davamlı şəkildə dayandırılması, xüsusilə də əhalinin ən yoxsul qruplarını qorumaq üçün ünvanlı sosial müdafiə tədbirləri ilə müşayiət olunarsa, sözü gedən keçidə nail olmaq baxımından əsas amillərdən biri olacaqdır.

Hesabatda Azərbaycan üçün dayanıqlı və xalis sıfır emissiyalı inkişafın təmin edilməsi üçün strateji yol xəritəsi müəyyən edilmişdir. Onun əsas məqamlara aşağıdakılar daxildir:

- **Təmiz enerji:** Azərbaycan zəngin bərpa olunan enerji resursları, külək və günəş enerjisinə malikdir və onlar ixrac məqsədli "yaşıl hidrogen" və elektrik enerjisi istehsal etmək və enerji istehsalı, sənaye və nəqliyyat sahələrində daxili məqsədlər üçün istifadə edilə olar. Bunun üçün, elektrik enerjisi infrastrukturuna əhəmiyyətli dövlət sərmayəsi və bərpa olunan enerji istehsalına özəl sərmayə tələb olunacaq ki, bu da dövlət-özəl tərəfdaşlıq (PPP) vasitəsilə də təmin edilə bilər.

- **Enerji səmərəliliyi:** Enerji səmərəliliyi hökumətin prioritetlərindən biridir və bu istiqamətdə səylər ictimai və özəl binalarda, eləcə də nəqliyyat sektorunda enerji səmərəliliyinin artırılması proqramını əhatə etməlidir. Yanacaq səmərəliliyi və emissiyalarla bağlı standartların sərtləşdirilməsi, elektriklə işləyən nəqliyyat vasitələrinin istifadəsi, vergi güzəştləri və maliyyə dəstəyi proqramları əhali və kommersiya istifadəçiləri tərəfindən enerji səmərəliliyini stimullaşdırmaqla bağlı kompleks təkliflərin bir hissəsinə çevrilməlidir.

- **Kənd təsərrüfatı və su sektoru:** Kənd təsərrüfatı Azərbaycanın qeyri-neft iqtisadiyyatı üçün mühüm sahələrdən biridir. Sektor ÜDM-in 8%-dən az hissəsini əhatə etsə də, ümumi məşğulluğun 36%-i bu sektorun payına düşür. Bununla belə, qeyd olunan sektor təkcə ekstremal hava şəraitinə deyil, həm də ölkədə mövcud su çatışmazlığına çox həssasdır. Sektorun temperaturların artması və su əlçatanlığının azalmasına qarşı müdafiəsi iqlim dəyişikliyinə davamlılığı artırmaq və emissiyaları azaltmaqla məhsuldarlığı yaxşılaşdırmaq üçün suvarma səmərəliliyinin artırılmasını və iqlimə uyğun rasional kənd təsərrüfatı təcrübələrinin tətbiqini zəruri edir.

*"Dekarbonizasiya və dayanıqlılığa keçid üçün zəruri olan investisiyalar, xüsusilə də onları gözlənilən faydaları baxımından qiymətləndirildikdə, böyük görünsə də, Azərbaycanın gələcək rifahı dövlət və özəl sərmayələrin cəlb olunmağa başlaması üçün düzgün siyasət çərçivəsinin müəyyən edilməsindən asılıdır"*, deyə **Azərbaycan üzrə İqlim və İnkişaf Hesabatının (CCDR) aparıcı müəllifi Andrea Liverani** bildirmişdir.

Azərbaycan üzrə İqlim və İnkişaf Hesabatını (CCDR) buradan yükləyin

**Ölkələr üzrə İqlim və İnkişaf Hesabatları (CCDR) haqqında**
Dünya Bankı Qrupunun Ölkələr üzrə İqlim və İnkişaf Hesabatları (CCDRs) iqlim dəyişikliyi və inkişaf məsələlərinin müzakirə edildiyi yeni əsas diaqnostik hesabatlardır. Onlar ölkələrə daha təsirli inkişaf məqsədlərinə çatmaqla yanaşı, istixana qazı emissiyalarını azalda və uyğunlaşmanı sürətləndirə biləcək ən təsirli tədbirləri prioritetləşdirməyə kömək edəcək. Ölkələr üzrə İqlim və İnkişaf Hesabatları məlumatlara və ciddi araşdırmalara əsaslanır və xərclər və çətinliklər, o cümlədən fayda və imkanlar da daxil olmaqla, istixana qazı emissiyalarını və iqlim həssaslıqlarını azaltmağın əsas yollarını müəyyən edir. Hesabatlarda karbon emissiyalarını azaltmaq və davamlı keçidi dəstəkləmək üçün konkret, prioritet tədbirlər təklif edilir. Ölkələr üzrə İqlim və İnkişaf Hesabatları ictimaiyyət üçün əlçatan sənədlər olmaqla, hökumətləri, vətəndaşları, özəl sektoru və inkişaf tərəfdaşlarını məlumatlandırmaq və inkişaf və iqlim məsələlərinin həllində iştirakını təmin etmək məqsədi daşıyır. Ölkələr üzrə İqlim və İnkişaf Hesabatları Dünya Bankı Qrupunun digər əsas diaqnostik araşdırmalarında, ölkələrlə işlərin aparılmasında istifadə olunacaq və yüksək təsirli iqlim tədbirləri üçün maliyyə vəsaitləri cəlb etməyə və birbaşa maliyyələşdirməyə kömək edəcək.

**Azərbaycan üzrə İqlim və İnkişaf Hesabatında (CCDR)** enerji sisteminə və son istifadə sektorlarına (nəqliyyat, tikinti və sənaye), eləcə də su təminatı və kənd təsərrüfatı sektorlarına diqqət yetirilməklə

hökumətin iqtisadiyyatın şaxələndirilməsi məqsədlərinə uyğun olan dekarbonizasiya və davamlılıq tədbirləri vurğulanır.

**Əlaqə üçün şəxslər:**
*Bakıda*: Zaur Rzayev, +994 50 216 18 76, zrzayev@worldbank.org
*Vaşinqtonda:* Indira Chand, +1 (703) 376-7491, ichand@worldbank.org

Dünya Bankının Azərbaycandakı layihələri və fəaliyyəti haqqında ətraflı məlumat üçün, bu linklərə daxil olun:
https://www.worldbank.org/en/country/azerbaijan
Facebook: https://www.facebook.com/WorldBankAzerbaijan

**Press-Reliz**
2024/ECA/039